

# Kənan HACI-50

***Hörmətli Kənan müəllim!***

***Sizi - tanınmış yazıçı-publisisti 50 illik yubileyiniz münasibətilə təbrik edirik.***

***Siz 1975-ci il martın 3-də dünyaya göz açmısınız. 125 saylı orta məktəbi, Azərbaycan Jurnalistlər Birliyinin Jurnalist Sənətkarlığı İnstitutunu, Atatürk Universitetinin ədəbiyyat fakültəsini bitirmisiniz.***

***1995-ci ildən yazıları mütəmadi olaraq dövri mətbuatda çap olunursunuz. "İki sahil", "Ədalət", "Vətəndaş həmrəyliyi" və digər qəzetlərdə çalışmısınız. APA İnformasiya Agentliyinin "Kulis.az" saytında redaktor, "Qanun" Nəşrlər Evində redaktor, "Publika.az" portalının redaktoru, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin "Aydın yol" qəzetində redaktor vəzifələrində işləmisiniz. Azərbaycan Yaradıcılıq Fondunun Sim-sim.az saytının redaktoru, "Mücrü" ədəbiyyat dərgisinin baş redaktoru olub. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Kitab bayramı" yarışmasında "2009-cu ilin Yeni Nəsil yazarı", eyni zamanda Əli bəy Hüseynzadə, Şahmar Əkbərzadə, Cəfər Cabbarlı mükafatlarına, Orta Asiya Yazarlar və Tarixçilər Birliyi tərəfindən "Turan birliyi" medalına layiq görülmüsünüz.***

***Siz Azərbaycan Yazıçılar Birliyinin, DGTYB-nin Məsləhət Şurasının üzvüsünüz. Müxtəlif ədəbi əsərlərdən ibarət 126 kitabınız nəşr olunub. Tərcümələrinizdən ibarət 5 kitab çap olunub. Əsərləriniz rus, türk, ingilis, ukrayn dillərinə tərcümə olunub, müxtəlif nüfuzlu antologiyalarda, almanaxlarda dərc olunub. "Fironun dəftəri" romanınız İranda, "Kəpənək vadisi" romanınız Özbəkistanda kitab halında nəşr edilib. Lev Tolstoyun "İnsan nə ilə yaşayır", Umberto Ekonun "Naməlum o", Andrey Platonovun "Həyat işığı", Dino Bussatinin "Tanrını görmüş köpək" kitabları sizin tərcümənizdə çap edilib.***

***Hörmətli Kənan müəllim!***

***Sizi bir daha 50 iilik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılığınızda uğurlar arzulayırıq.***

***Azərbaycan Yazıçılar Birliyi***